Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 30 (22.941)

14 fevral 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Formula-1 Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edib.

Görüşdə Azərbaycanda Formula-1 yarışlarının çox yaxşı təşkil olunduğu və yüksək səviyyədə keçirildiyi vurğulanıb. Qeyd edilib ki, Formula-1 yarışlarının Azərbaycanda təşkili xeyli sayda insanların paytaxtımızda gedən inkişafla yaxından tanış olması ilə bərabər, eyni zamanda Azərbaycana turist axınının təmin edilməsi işinə də öz töhfəsini verib.

Söhbət zamanı Bakıda bu ilin aprel ayında keçiriləcək Formula-1 yarışları ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxelenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" 2018-ci il 9 fevral tarixli Sərəncamı pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində növbəti mühüm addımdır və bu sərəncam pensiya təminatında artım dinamikasının, ümumən, əhalinin rifah halının yaxşılaşdırılmasına yönələn tədbirlərin cari ildə də uğurla davam etdirildiyini təsdiq edir.

Pensiyalar artımla ödəniləcək

Həmin sərəncama əsasən əmək pensiyalarının sığorta hissəsi və fərdi hesabların sığorta hissəsində toplanmış pensiya kapitalı 2017-ci il üzrə orta aylıq nominal əməkhaqqının Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq 5,7 faiz artırılmışdır.

Ölkə başçısının bu sərəncamının icra edilməsi, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən muxtar respublika üzrə əmək pensiyaçılarının pensiyalarının yenidən hesablanması məqsədilə fondun şəhər və rayon şöbələrinə müvafiq tapşırıqlar verilmişdir.

Qeyd edək ki, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə 2017-ci il 10 mart tarixli Azərbaycan Respublikasının Qanunu"na əsasən 1 iyul 2017-ci il tarixdən əmək pensiyasının baza hissəsi ləğv olunaraq, pensiyaların baza və sığorta hissələri birləşdirilərək vahid məbləğ kimi müəyyən edildiyindən artımlar əmək pensiyasının sığorta hissəsinin hamısına, yəni pensiyanın ümumi məbləğinə və fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalına tətbiq ediləcəkdir.

Artımlar muxtar respublika üzrə 47 min 994 nəfər əmək pensiyaçısına şamil ediləcək və pensiyalara yönəldilən aylıq vəsaitdə, ümumilikdə, 478 min manat artım olacaqdır. Muxtar respublika üzrə fərdi uçot sistemində qeydiyyatda olan 168 min 935 sığortaolunanın fərdi hesabının sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsi də xüsusi proqram vasitəsilə avtomatlaşdırılmış şəkildə həyata keçiriləcəkdir.

Artım şamil olunacaq şəxslərin əmək pensiyalarının məbləğləri müxtəlif olduğundan pensiyalarda artımların məbləğləri də fərqli olacaq. Məsələn, 200 manat məbləğində olan əmək pensiyası üzrə hesablama aparsaq, indeksləşdirmə nəticəsində həmin pensiyanın məbləği 5,7 faiz, yəni 11,40 manat artırılaraq 211,40 manata çatdırılacaq.

Dövlət qulluqçusu, hərbi qulluqçu, Mərkəzi Seçki Komissiyasının üzvü, Hesablama Palatasının üzvü, deputat və digər belə kateqoriyalardan olan şəxslər kimi pensiyaya çıxmış vətəndaşların pensiyalarına bu artımlar tətbiq olunmayacaq.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən indeksləşmə 1 həftə ərzində yekunlaşdırılaraq bütün növ əmək pensiyaları ürzə hesablanmış artımlar, Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq 2018-ci ilin fevral ayının pensiya ödənişində yanvar ayının artımları da daxil olmaqla əmək pensiyaçılarına ödəniləcəkdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti

Yanvar ayında 66 daşınmaz əmlak obyektinə ünvan verilib

Muxtar respublikada torpaqlardan səmərəli istifadə sahəsində qarşıya qoyulmuş vəzifələrin icrası və sakinlərə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi 2018-ci ilin ilk ayı ərzində də diqqət mərkəzində saxlanılmışdır. Ötən ay təsdiq olunmuş qrafik əsasında Şərur rayonunun Yuxarı Aralıq və Yengicə, Ordubad rayonunun Behrud və Dəstə, Şahbuz rayonunun Kolanı, Culfa rayonunun Yaycı, Babək rayonunun Şəkərabad və Aşağı Buzqov kəndlərində vətəndaşlara səyyar xidmət göstərilmiş, 106 müraciətə baxılmışdır.

Komitənin müvafiq sektoru və yerli idarələri tərəfindən hazırlanmış 490 texniki sənədin parametrləri və həmin sənədlər haqqında digər məlumatlar Milli Qeydiyyat Sisteminə, 122 əmlakın bazar dəyəri isə məlumat bazasına daxil edilmişdir. 2018-ci ilin yanvar ayı ərzində muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 66 daşınmaz əmlak obyektinə ünvan verilmişdir.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq Babək rayonunun Yarımca, Cəhri, Kalbaoruc Dizə, Məmmədrza Dizə və Qaraqala, Şahbuz rayonunun Daylaqlı, Kiçikoba, Ayrınc, Badamlı və Kolanı, Culfa rayonunun Əlincə, Xoşkeşin, Bənəniyar və Xanəgah kəndlərinin torpaqlarının qida maddələri ilə təmin olunmasına dair kartoqramları müvafiq bələdiyyələrə təqdim edilmiş, onlara kartoqramlardan istifadə qaydaları izah edilmişdir. "Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnaməyə uyğun olaraq 76 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikasının siyasi-inzibati xəritəsi hazırlanaraq muxtar respublikanın Daxili İşlər Nazirliyinə, Xanlıqlar və Dəmirçi dairəvi avtomobil yolunun planı hazırlanaraq "Naxavtoyol" Dövlət Şirkətinə təqdim edilmişdir.

Muxtar respublikanın torpaq fondundan səmərəli istifadəyə dövlət nəzarətinin gücləndirilməsi və vətəndaşların mülkiyyət hüquqlarının dövlət reyestrində qeydiyyata alınmasında operativliyin təmin edilməsi istiqamətində işlər bundan sonra da davam etdiriləcəkdir.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti

Ötən ay Naxçıvanda 848 yeni abonent sürətli internetlə təmin edilib

Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi istiqamətində həyata keçirilən tədbirlər 2018-ci ilin yanvar ayında da uğurla davam etdirilib. Culfa rayonunun Dizə kəndində 384 nömrəlik avtomat telefon stansiyası yeni tikilən kənd mərkəzinə köçürülmüş, Şərur rayonunun Ərəbyengicə kəndində 288 nömrəlik NGN tipli yeni avtomat telefon stansiyası qurulmuşdur. Mövcud avtomat telefon stansiyalarının nömrə tutumlarının artırılması nəticəsində hesabat ayında 211 ədəd yeni telefon nömrəsi istismara verilmişdir. Şərur rayonunun Ərəbyengicə kəndində yeni poçt bölməsi yaradılmış, Culfa rayonunun Dizə kəndində poçt bölməsi yeni binaya köçürülmüş, işçi kompüterlər "Naxçıvanpoçt"un şəbəkəsinə qoşulmuş və digər lazımi avadanlıqlarla təmin olunmuşdur.

Bu dövrdə muxtar respublika ərazisində genişzolaqlı ADSL texnologiyası vasitəsilə 848 yeni abunəçi internetlə təmin edilmiş, kompüter kurslarına 46 dinləyici qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikasının elektron hökumət portalında yenilənmə işləri davam etdirilmiş, "Naxçıvan İslam Mədəniyyəti – 2018" internet səhifəsi qlobal şəbəkəyə inteqrasiya edilmişdir.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanvar ayı ərzində istehsal və idxal olunan məhsulların keyfiyyətinə nəzarət işini, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin standartların tələblərinə uyğunluğunu diqqətdə saxlamışdır. Bu dövrdə 113 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin edilmişdir. Məhsulların sertifikatlaşdırılmasına dair elektron xidmət vasitəsilə daxil olmuş 36 müraciət operativ icra olunmuşdur.

Müasir standartların tətbiqi dövrün tələbidir

Yerli istehsal məhsullarının yüksək keyfiyyətinin qorunması məqsədilə 12 qida istehsalı müəssisəsinə aylıq dövrlər üzrə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılmışdır. Təsərrüfat subyektlərindən götürülmüş məhsul nümunələrinin 107 halda laboratoriya analizləri aparılmış və texniki normativ-hüquqi aktların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Bundan başqa, meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması tədbirinin icrası istiqamətində məhsulların 10 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılmış, 2 anbardan, 3 istixanadan və 4 satış obyektindən götürülmüş məhsulların 11 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Muxtar respublikada fəaliyyətdə olan sahibkarlar üçün "Keyfiyyəti idarəetmə sisteminin əsas prinsipləri" mövzusunda seminar keçirilmiş, standartların norma və prinsipləri izah olunmuşdur.

Əhalinin hepatit virus infeksiyalarından qorunması işinə nəzarət artırılmış, natamam tibbi müayinədən keçmiş 61 işçi tam tibbi müayinədən keçirilmişdir. Komissiya tərəfindən 19 təsərrüfat subyektində 56 nəfər obliqat qrup işçilərdən qan nümunələri götürülmüş və müvafiq tibbi nəzarət təmin olunmuşdur. Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması istiqamətində 5 məktəbin bufetində, 1 təhsil müəssisəsinin və 8 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında monitorinqlər, 4 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılmış və aşkar olunmuş bir sıra nöqsanlar yerində aradan qaldırılmışdır.

Xarici bazarlara çıxış imkanına malik məhsulların ixracının dəstəklənməsi çərçivəsində müvafiq işçi qrupu müəssisələrdə olmuş və istehsal olunan məhsulların ixrac olunacaq ölkələrə uyğun markalanması və beynəlxalq idarəetmə standartlarının tətbiqi ilə bağlı tədbirlər görülmüşdür. Həmçinin ay ərzində metroloji norma və qaydalara uyğun olaraq 755 ölçmə vasitəsi yoxlanılmışdır. İdxal olunan malların etiketlərində və adlarında istehlakçılar üçün Azərbaycan dilində zəruri məlumatların olmasına nəzarət aparılmışdır. Muxtar respublikada istehsal olunan məhsulların markalanmasına nəzarət məqsədilə 10 istehsal müəssisəsində maarifləndirmə xarakterli monitorinq aparılmışdır.

Yanvar ayında, ümumilikdə, standartların tələblərinə uyğun olmayan 999 manat dəyərində yararlılıq müddəti bitmiş, keyfiyyətsiz, kontrafakt məhsul satışdan çıxarılmışdır. Ailə təsərrüfatlarında istehsal olunan məhsulların markalanmasına köməklik göstərilməsi üçün 1992 etiket hazırlanaraq ailə təsərrüfatlarına çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti

Naxçıvan Muxtar Respublikası ötən illər ərzində bütün istiqamətlər üzrə sürətli inkişafını təmin edərək Azərbaycanın iqtisadi regionları arasında liderliyini qoruyub. Məhz bunun nəticəsi olaraq 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club" tərəfindən müəyyən edilən investisiya reytinqində muxtar respublikamız ölkəmizin regionları arasında 18 parametr üzrə ən yüksək ümumi bal toplayıb. İnvestisiya reytinqində liderliyin əldə olunması həyata keçirilən islahatların səmərəliliyini, kiçik və orta sahibkarlığın inkişafının təmin edildiyini, biznes imkanlarının genişləndirildiyini, investisiya mühitinin yaxşılaşdırılması ilə investisiyaların həcminin artırıldığını və iqtisadi inkişafın dinamik şəkildə yüksəldiyini bir daha göstərir. İnvestisiya mühitinin formalaşmasında sağlam siyasi-iqtisadi və normativ-hüquqi mühit, şəffaflıq, proqnozlaşdırma kimi amillər mühüm rol oynayıb.

Əsrə bərabər inkişaf, düşünülmüş iqtisadi siyasət

Muxtar respublikada biznes mühitinin liberallaşmasına, sənayeləşmə siyasətinin gücləndirilməsinə, iqtisadiyyatın bütün sahələri üzrə optimal nəticələrin əldə olunmasına və ümumilikdə, sosial-iqtisadi inkişafa istiqamətlənmiş dövlət siyasətinin davam etdirilməsi ümumi daxili məhsulun (ÜDM) dinamik artımına imkan yaradıb. Makroiqtisadi sabitliyin iqtisadi artıma doğru istiqamətlənməsi, ÜDM-in yüksəlməsi isə investisiya potensialını genişləndirib. Cəmiyyətin iqtisadi rifahının əsas göstəricilərindən biri hesab olunan ÜDM və onun dinamik artımı dövlət xərclərinin, xalis ixracatın həcminin, yaradıcı insan potensialının reallaşdırılması imkanlarının daha yüksək olmasına şərait yaradıb. Nəticədə, insanların həyat səviyyəsinin əsas göstəriciləri olan adambaşına düşən ümumi daxili məhsul və əhali gəlirləri yüksəlib. 2017-ci ildə ÜDM-in 1995-ci ilə nisbətən 62 dəfə, adambaşına düşən ÜDM-in 45 dəfə artması və adambaşına düşən ÜDM-in əhali artımını dəfələrlə qabaqlaması muxtar respublikada yürüdülən iqtisadi siyasətin mühüm uğurları sırasındadır.

Səmərəli və yüksək rəqabətli biznes mühitinin mövcud olması, istehsalın texnoloji cəhətdən təkmilləşdirilməsi, təbii ehtiyatların dövriyyəyə cəlb olunmasının genişləndirilməsi ÜDM-in inkişafına birbaşa təsir edir. Bununla belə, cəmiyyətin müxtəlif tələbatlarının ödənilməsi, məhsuldarlığın əldə olunması və mənfəətin qazanılması üçün bütün istehsal amillərini sahibkarlıq fəaliyyəti birləşdirir və əlaqələndirir. Ümummilli liderimiz Heydər Əliyev də sahibkarlığın inkişaf etdirilməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən olduğunu vurğulayaraq deyirdi: ***"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur".*** Sahibkarlığın inkişafı bir tərəfdən məhsul bolluğu yaratmaqla bazarın formalaşmasına səbəb olur və sağlam rəqabət üçün geniş imkanlar açırsa, digər tərəfdən işsizlik probleminin həllini sürətləndirir. Naxçıvan Muxtar Respublikasının regional rəqabət indeksinə görə mövqelərinin getdikcə gücləndirilməsində sahibkarlığın inkişafı mühüm amil kimi qiymətləndirilir. Bu məqsədlə sahibkarlara süni maneələrin yaradılmaması, onların fəaliyyətinə qanunsuz müdaxilə hallarının qarşısının alınması üçün əsaslı tədbirlər görülüb, qeydiyyat sistemi sadələşdirilib, lisenziyalar minimuma endirilib, sahibkarlara güzəştli kreditlərin verilməsi sahəsində əhəmiyyətli addımlar atılıb.

Sahibkarlığa Kömək Fondunun yaradılması özəl bölmənin inkişafını daha da sürətləndirib. Təkcə ötən il sahibkarlara verilən 10 milyon 59 min manatdan çox kredit hesabına 60 yeni istehsal və xidmət sahəsi istifadəyə verilib. İqtisadi inkişaf və rifah, investisiya və biznes mühiti arasında möhkəm əlaqənin yaradılması sayəsində bu gün muxtar respublikada istehsal olunan məhsul növü 10-dan 372-yə çatdırılıb, 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilməklə daxili bazarın qorunmasına nail olunub. Blokada şəraitində yaşamasına baxmayaraq, yerli iqtisadiyyatın inkişafı və regionda məhsul çeşidlərinin şaxələndirilməsi istiqamətində göstərilən səylər investisiya reytinqinin nəticələri ilə tanış olan beynəlxalq nümayəndələr tərəfindən də çox yüksək dəyərləndirilir.

Sahibkarlığın inkişafı, infrastrukturun yaradılması xidmətlərə çıxışın asanlaşdırılmasına və ixracatın stimullaşdırılmasına şərait yaradıb. 2009-cu ildən etibarən muxtar respublikada yerli məhsulların rəqabətqabiliyyətliliyi artırılmaqla xarici ticarət dövriyyəsində müsbət saldo yaranıb. Əgər 1995-ci ildə xarici ticarət dövriyyəsinin 90 faizi idxalın, cəmi 10 faizi ixracın payına düşürdüsə, ötən illər ərzində bu strukturda köklü dəyişikliklər baş verib, onun 92 faizini ixrac, cəmi 8 faizini idxal təşkil edib. 2017-ci ildə xarici ticarət dövriyyəsinin həcmi 1995-ci ilə nisbətən 24 dəfə artımla müşayiət olunub. Sahibkarlıq subyektlərinin beynəlxalq əlaqələrinin genişləndirilməsi və yerli istehsal məhsullarının xarici ölkələrdə tanıdılması üçün sahibkarların yerli və xarici ölkələrdə keçirilən biznes-forum, konfrans, sərgilərdə iştirakı təmin edilib. Blokada şəraitində olan muxtar respublikamızda istehsal olunan bir çox kənd təsərrüfatı və sənaye məhsullarının Türkiyə Respublikasına rüsumsuz ixracı barədə qərarın qəbul edilməsi Naxçıvanın ixrac imkanlarının genişləndirilməsinə öz töhfəsini verəcəkdir.

Həyata keçirilən məqsədyönlü və uzaqgörən siyasət nəticəsində artıq 10 ilə yaxındır ki, ÜDM-in sahə strukturunda ilk yerdə qərar tutan sənaye sahəsi üzrə hər il yeni emal müəssisələrinin fəaliyyətə başlaması muxtar respublikanın investisiya cəlbediciliyinə mühüm təsir göstərib. Faktlar da bunu təsdiq edir. Belə ki, 2005-ci illə müqayisədə sənaye sahəsinə yönəldilən investisiyaların həcmi 6, əsas fondların dəyəri 7 dəfədən çox artıb. Hazırkı dövrdə muxtar respublikanın sosial-iqtisadi inkişafında, yeni iş yerlərinin yaradılmasında, ixrac potensialının gücləndirilməsi və idxaldan asılılığın minimuma endirilməsində sənaye potensialının çox mühüm rol oynadığını xüsusi qeyd etmək lazımdır. Bu gün muxtar respublikada istehsal olunan sənaye məhsulunun 94,8 faizi özəl sektorun, 96 faizi malların, 4 faizi isə xidmətlərin payına düşür. Muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrinin sayı son 22 ildə 11 dəfə artaraq 442-yə çatıb, bu müəssisələrin istehsal etdiyi sənaye məhsulunun həcmi isə 106 dəfə artıb. Dövlətin iqtisadi imkanlarının genişlənməsi yeni-yeni layihələrin həyata keçirilməsinə şərait yaradıb, iqtisadi inkişafın əsas göstəricilərindən biri olan adambaşına düşən sənaye məhsulunun həcminə ciddi təsir göstərib. 1995-ci ildə adambaşına düşən sənaye məhsulunun həcmi 27 manat təşkil edirdisə, 2017-ci ildə bu rəqəm 2140 manatdan çox olub.

Muxtar respublikanın müasir iqtisadi potensialı, sahib olduğu əkinçilik, heyvandarlıq və mədən xammalları, Naxçıvanın öz imkanları hesabına, sənayeləşmənin daha da sürətlənməsinə imkan verib. Sənayenin strukturunda ilk yeri yeyinti sənayesi tutub. Bu sahənin inkişafı kənd təsərrüfatının da tarazlı şəkildə inkişafını stimullaşdırıb. Muxtar respublikada aparılan iqtisadi siyasətin məqsədi yerli xammala əsaslanan kənd təsərrüfatı məhsulları emalını artırmaqdan ibarət olub. Ona görə də kənd təsərrüfatında yüksək məhsuldarlığın təmin edilməsi, fermerlərə dövlət dəstəyinin daha səmərəli təşkili və ərzaq təhlükəsizliyinin daim möhkəmləndirilməsi aqrar sahədə dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi diqqəti cəlb edir. Muxtar respublika əhalisinin 70 faizdən çoxunun kəndlərdə yaşaması nəzərə alınaraq, onların sosial vəziyyətinin və həyat səviyyəsinin yüksəldilməsi hər zaman diqqət mərkəzində saxlanılıb. Ənənəvi emal müəssisələrinin bərpa olunması məqsədilə iqtisadi səmərəlilik baxımından gəlirli sahələrdən olan üzümçülüyün və tütünçülüyün inkişafı üçün tədbirlər görülüb. Heyvandarlara 1 milyon 750 min manat həcmində kreditin verilməsi sayəsində 11 yeni heyvandarlıq təsərrüfatı, arıçılara 50 min manat həcmində kreditlər verilərək 3 arıçılıq təsərrüfatı və mum vərəqi istehsalı sahəsi, eyni zamanda əhalinin quş əti və yumurtaya olan tələbatının ödənilməsi üçün 7 yeni quşçuluq təsərrüfatı yaradılıb. Ümumilikdə, 2017-ci ildə muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsulunun həcmi 1995-ci ilə nisbətən 12 dəfə artıb.

Müəyyən olunmuş keyfiyyət standartları çərçivəsində əhalinin əsas qida məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi, strateji məhsul olan taxılı uzun müddət saxlamağa imkan verən anbarların, kənd təsərrüfatı məhsullarının saxlanması və satışını təmin edən soyuducu anbarların istifadəyə verilməsi muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına əlverişli zəmin yaradıb. İstehsal və xidmət müəssisələrinin artması məhsul istehsalının həcmi və məşğulluq səviyyəsinin yüksəlməsi ilə nəticələnib ki, bu da əhalinin maddi rifahını yaxşılaşdırıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə təsdiq edilmiş 2014-2015-ci illəri əhatə edən birinci dövlət proqramı uğurla icra edilib, 2016-2020-ci illəri əhatə edən ikinci dövlət proqramının reallaşması nəticəsində 2017-ci ildə 98 faizi daimi iş yeri olmaqla, 2437, ümumilikdə isə keçən dövr ərzində 12 mindən çox yeni iş yeri açılıb. Dövlətin sosial-iqtisadi siyasətinin əsasını gəlirlər və yüksək əməkhaqqı siyasəti təşkil etdiyindən gəlirlərin formalaşması ilə bağlı tədbirlər sistemi vasitəsilə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə nail olunub.

Enerji sektoru iqtisadi inkişafa təkan verən əsas mexanizmlərdən biridir. Enerjinin səmərəli istifadəsinin iki mühüm yolu vardır: mövcud olan enerji mənbələrindən daha səmərəli istifadə və yeni alternativ enerji mənbələrinin səfərbər edilməsi. Alternativ enerji mənbələrinin texnologiyaları digər enerji resursları ilə müqayisədə ətraf mühitə daha az zərər vurur, eyni zamanda etibarlı və davamlı enerji xidmətləri göstərilir. Muxtar respublikanın il ərzində günəşli və küləkli günlərinin miqdarına görə bərpaolunan enerji mənbələrinin potensialı baxımından əhəmiyyətli mövqeyə malik olduğu dəyərləndirilərək Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilib. Hazırda muxtar respublikanın enerji ehtiyatlarına olan tələbatının 60 faizi məhz alternativ enerji hesabına ödənilir. Külək enerjisindən istifadə istiqamətində isə Culfa rayonu ərazisində işlər davam etdirilməkdədir. Muxtar respublikada elektrik enerjisi istehsal edən müəssisələrin sayının 1-dən 8-ə çatdırılması enerji təhlükəsizliyini təmin etməklə sənayeləşmə siyasətinin genişlənməsinə yeni imkanlar açıb.

İnvestisiya prosesi ölkənin gələcəyini formalaşdırır, rəqabət qabiliyyətini gücləndirir. İnvestisiyaların xüsusi çəkisi ÜDM-də nə qədər çox olarsa, bu göstərici iqtisadiyyatda müsbət nəticə kimi qiymətləndirilə bilər. Bu sahədə də ciddi nailiyyətlər əldə edilib. Əsas kapitala investisiya qoyuluşu 1995-ci ilə nisbətən 2017-ci ildə 350 dəfə artıb ki, bunun da 93 faizə qədəri tikinti-quraşdırma işlərinə sərf olunub. Nəticədə, saysız-hesabsız istehsal və sosial obyektlər tikilib istifadəyə verilib, kəndlə şəhər arasındakı fərq aradan qaldırılıb, rayonların tarazlı inkişafına nail olunub, yol, nəqliyyat, su təchizatı, kommunal xidmət, təhsil, səhiyyə sahələrində infrastrukturun keyfiyyəti ən yüksək səviyyəyə çatdırılıb. Nəqliyyat və kommunal xidmətlər infrastrukturunun keyfiyyəti sahibkarların bazara giriş xərclərini azaltmaqla ixracatın artmasına təkan verib, təhsil və səhiyyə infrastrukturunun keyfiyyəti isə insan kapitalının inkişafına müsbət təsir göstərib. Təkcə ötən ildə muxtar respublika üzrə 70 kilometr uzunluğunda yeni asfalt yol salınıb, 10 orta məktəb binası, 1 uşaq bağçası, 1 uşaq musiqi məktəbi, Naxçıvan Dövlət Universiteti üçün yeni tədris korpusu istifadəyə verilib, Naxçıvan Müəllimlər İnstitutu üçün yeni tədris kompleksi yaradılıb, tibbi xidmətlərin yaxşılaşdırılması istiqamətində tədbirlər görülüb.

Sosial və iqtisadi əlaqələri tənzimləyən sahə kimi turizm muxtar respublikada aktiv şəkildə inkişaf etdirilir. Turizm sektorunun inkişafının dəstəklənməsi və milli dəyərlərə uyğun turizm tədbirlərinin keçirilməsinə əsaslanan yeni investisiya layihələrinin cəlb edilməsi nəticəsində muxtar respublikaya gələn yerli və xarici turistlərin sayı 413 mini ötüb ki, bu da son 10 ildə 3 dəfə artım deməkdir.

İnvestisiya siyasətinin əsas məqsədlərindən biri də lizinq xidmətinin və ipoteka kreditinin inkişafı üçün şəraitin yaradılmasından ibarət olub. Elə bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti ona məxsus olan kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinq yolu ilə verilməsi və ya müddətli satılması sahəsində səmərəli fəaliyyət göstərib, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq muxtar respublikaya gətirilib. 2016-cı il noyabrın 7-də isə "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin yaradılması ilə uzunmüddətli ipoteka kreditlərinin verilməsinə başlanıb, 2017-ci il ərzində cəmiyyət tərəfindən 1 milyon 757 min 264 manat məbləğində ipoteka krediti verilərək əhalinin mənzil təminatı yaxşılaşdırılıb.

Rəqabətlilik reytinqinin yüksək olması muxtar respublika iqtisadiyyatının cəlbediciliyini artırır. Bu da biznes fəaliyyətinin nə dərəcədə səmərəli olduğunu müəyyən etməyə imkan verməklə yerli məhsulların rəqabət qabiliyyətinin artmasına və dünya bazarına çıxışını asanlaşdırmaqla investisiya imkanlarının genişlənməsinə şərait yaradır. Bütün bunlara əsaslanaraq qətiyyətlə demək olar ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın iqtisadi regionlarının 2017-ci il üçün investisiya reytinqində yüksək bal toplayaraq ilk yeri tutması muxtar respublikamızda aparılan davamlı sosial-iqtisadi inkişafın məntiqi nəticəsidir. Bu nailiyyətlərin təməlində duran əsas səbəb isə ulu öndər Heydər Əliyev siyasi xəttinə sədaqət və bu yolun uğurla davam etdirilməsidir.

Mehriban İMANOVA
Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru

Qədim Naxçıvan torpağı tarixən mədəniyyət, sənət, ədəbiyyat beşiyi olub və dünya mədəniyyətinə qüdrətli sənətkarlar bəxş edib. Naxçıvan tarixinin möhtəşəm sütunlarından biri də onun musiqi mədəniyyəti tarixidir. Naxçıvanlı musiqiçilər yazdıqları əsərlərində, ifaçılıq sənətində tarixi hadisələri, qəhrəmanları, onların göstərdikləri şücaət və igidlikləri, yaşadıqları dövrün xüsusiyyətlərini vəsf etməyə səy göstəriblər.

Musiqi mədəniyyətimiz təbliğ olunur

Onu da xüsusi vurğulamaq lazımdır ki, Naxçıvan mədəniyyəti, eləcə də onun bir qolu olan musiqi sənəti heç bir dövrdə ictimai inkişafdan geri qalmayıb, qədim diyar Azərbaycanın yüksək inkişaf etmiş mədəniyyət mərkəzlərindən biri kimi tanınıb.

Ümummilli liderimiz Heydər Əliyev başqa sənət sahələri ilə yanaşı, Azərbaycan bəstəkarlıq məktəbinin və musiqişünaslığın inkişafına da böyük diqqət və qayğı ilə yanaşıb. Dahi öndəri musiqi mədəniyyətinin çağdaş və aktual məsələləri, bəstəkar və ifaçıların problemləri, fikir və təklifləri, uğurları daim maraqlandırıb. O, ömrünü bu sahəyə bağlayan insanlardan köməyini əsirgəməyib, onların fəaliyyətinə qayğı göstərib.

Musiqini dinləmək, onu daxilən hiss etmək, duymaq, öz fikirlərini bilavasitə musiqi dilinə çevirə bilmək istedadına malik olan insan çox xoşbəxtdir. Məhz belə istedadlı insanlar Naxçıvanın bəstəkarlıq təhsili almış ilk musiqiçilərindən biri Məmməd Nəsirbəyov, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq şöbəsini müvəffəqiyyətlə bitirmiş Nəriman Məmmədov, Ramiz Mirişli Naxçıvanda professional bəstəkarlıq sənətinin ilk mərhələsini qoyublar.

Bu gün bəstəkarları, ifaçıları, musiqişünasları öz ətrafında birləşdirən Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı da ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə fəaliyyətə başlayan yaradıcılıq təşkilatlarındandır. Adıçəkilən qurumun fəaliyyəti ilə yaxından tanış olmaq üçün təşkilatın sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilovla həmsöhbət oluruq. Onun dediklərindən:

– 1978-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan Təşkilatı kimi fəaliyyətə başlayan qurum artıq 40 ilə yaxındır ki, muxtar respublikanın ictimai-mədəni həyatında yaxından iştirak edir, musiqi mədəniyyətimizin zənginləşməsinə və inkişafına töhfələr verir. Təşkilatın məqsədi xalqın mənəvi zənginləşməsinə xidmət göstərən Azərbaycan musiqi mədəniyyətini inkişaf etdirməkdən, musiqi irsinin qeydinə qalmaqdan ibarətdir. Bunun üçün təşkilat Azərbaycanın və eləcə də Naxçıvan diyarının musiqi sənətinin yaradıcılıq çoxcəhətliyinin, milli musiqinin və dünya musiqi mədəniyyətinin ən yaxşı ənənələrinin qorunub saxlanması və yeniləşdirilməsi prinsiplərini fəaliyyət proqramı kimi qəbul edib. Təşkilat üzvləri öz öhdələrinə düşən vəzifələri dərindən dərk edərək, musiqi mədəniyyətimizin inkişafı naminə öz yaradıcılıq potensiallarını daha da artırırlar.

Ötən dövr ərzində təşkilata Fəridə Ağayeva, Vidadi Heydərov, Əkrəm Məmmədli, Nizami Məmmədov kimi yaradıcı şəxslər qoşularaq üzvlərin sayı 8-dən 12-yə çatıb.

Yaşar Xəlilov onu da diqqətimizə çatdırdı ki, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi və Naxçıvan Musiqi Kolleci ilə sıx yaradıcılıq əlaqələri saxlayır. Belə ki, adıçəkilən müəssisələrdə keçirilən musiqi günlərinə, görkəmli bəstəkarların yubileylərinə və xatirələrinə həsr olunmuş konsertlərdə təşkilatın üzvləri də yaxından iştirak edirlər. Bəstəkar Məmməd Nəsirbəyovun 100 illik, Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubiley tədbirləri bu baxımdan yaddaqalan olub. Təşkilat, həmçinin Musiqi Kollecinin xor və xalq çalğı alətləri, Naxçıvan Dövlət Filarmoniyasının kamera və xalq çalğı alətləri orkestri, xor kollektivləri ilə yaxından yaradıcılıq əlaqələri saxlayır, mütəmadi olaraq yeni yazılan əsərlər ifa üçün bu kollektivlərə təqdim edilir.

Öyrənirik ki, təşkilat görkəmli bəstəkar, Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətləri olan Tofiq Bakıxanovla sıx yaradıcılıq əlaqələri saxlayır, onun tövsiyələrindən bəhrələnir. Bəstəkar Naxçıvanda olduğu zaman dəfələrlə kollektivin üzvləri ilə görüşüb, yaradıcılıq müzakirələri aparıb. Hətta gənc bəstəkar Hakim Məmmədlinin yaradıcılıq konsertində iştirak edərək onun haqqında yüksək rəy bildirib.

Gələcək planlara gəldikdə isə təşkilatın sədri bildirir ki, bu il ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi, eləcə də Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının yaranmasının 40 illiyi münasibətilə geniş hesabat konsertinin proqramı hazırlanır. Ulu öndərə həsr olunmuş musiqi əsərlərindən ikisi – Şəmsəddin Qasımovun "Sönməyən günəşim" və Yaşar Xəlilovun "Fəxr edirəm ki, mən azərbaycanlıyam!" odası hər il Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri arasındakı müsabiqənin proqramına daxil edilib.

Ötən dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində "Naxçıvan bəstəkarlarının uşaq mahnıları" məcmuəsi nəşr edilərək musiqi təhsili müəssisələrinə göndərilib. Həmçinin təşkilatın üzvlərindən Rüxsarə Hüseynovanın "Musiqinin elementar nəzəriyyəsi", "Polifoniya tarixi", Kamal Əhmədovun "Mahnılar və duetlər", Günay Məmmədovanın "Tofiq Bakıxanov: Naxçıvan sevincləri" və "Bəstəkar Nəriman Məmmədov" kitabları da işıq üzü görüb. Fəridə Ağayevanın yaradıcılıq konserti keçirilib. Konsert müəllif əsərlərinin ifası kimi tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Qeyd edək ki, Yaşar Xəlilov tərəfindən Hüseyn Cavidin eyniadlı faciəsi əsasında yazılmış "İblis" operasının xor üçün iki nümunəsi Naxçıvan Dövlət Filarmoniyasının xor kollektivi tərəfindən hazırlanır.

Naxçıvan Bəstəkarlar Təşkilatı gənc və həvəskar bəstəkarlarla da müntəzəm əlaqə saxlayır, yaradıcılıq işlərində onlara qayğı və köməklik göstərir, yeni istedadlı bəstəkar və musiqişünasların təşkilata cəlb olunması hesabına öz sıralarını genişləndirməyi diqqətdə saxlayır.

Tarixi baxımdan şərəfli bir yol keçmiş Bəstəkarlar Təşkilatının üzvləri bu gün də öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirir və musiqi mədəniyyətimizin inkişafı naminə var qüvvələrini əsirgəməyərək Azərbaycan musiqisini zənginləşdirirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bütün sahələrə olduğu kimi, ifaçılıq və bəstəkar-musiqişünaslıq sənətinə də böyük qayğı göstərir. Bu diqqət və qayğı musiqiçiləri daha yaxşı işləməyə, böyük uğurlar qazanmağa sövq edir.

Fatma BABAYEVA

Şagirdlər Hərbi Liseylə tanış olublar

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş qrafikə əsasən fevral ayının 9-dan muxtar respublikanın şəhər və rayon təhsil şöbələrinin tabeliyində olan ümumtəhsil məktəblərindəki təhsillərini Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə davam etdirmək istəyən şagirdlərin liseylə tanışlığı başlayıb. Fevral ayının 13-də növbəti belə tədbir təşkil edilib. Şərur rayonunun ümumtəhsil məktəblərinin 100-dən çox şagirdi liseydə yaradılan şəraitlə tanış olub, hərbi dərslərdə iştirak ediblər.

Liseyin zabitləri şagirdlərə buradakı şərait, kursantların təhsil almaları üçün yaradılan imkanlardan danışıblar. Liseyin muzeyi ilə tanış olan şagirdlərə buradakı eksponatlar barədə ətraflı məlumat verilib. Bildirilib ki, muzeydə təhsil ocağının müxtəlif dövrlərdəki fəaliyyətinə aid fotoşəkillər, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən kitablar nümayiş etdirilir. Liseyin yataqxanası, kursantların asudə vaxtlarını səmərəli təşkil etmək üçün müxtəlif stolüstü oyun vasitələri, televizor, kitablar olan istirahət otağı da şagirdlərdə yüksək təəssüratlar yaradıb. Atəş otağında məktəblilərə atəş hazırlığından danışılıb və virtual atış öyrədilib.

Tanışlıq zamanı diqqətə çatdırılıb ki, mövcud imkanlardan səmərəli istifadə edən müəllim-zabit heyəti bilikli, vətənpərvər, sağlam və əqidəli hərbçilərin yetişdirilməsində əllərindən gələni əsirgəmirlər. Liseydə keçilən dərslərlə yanaşı, müxtəlif olimpiada və yarışlar da təşkil olunur, kursantların muxtar respublikada keçirilən tədbir və yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, Heydər Əliyev adına Hərbi Liseyin uğurları ildən-ilə artır, ali hərbi məktəb və akademiyalara qəbul olunan kursantların sayı çoxalır.

Kursantlarla nahar edən şagirdlər buradakı şəraitdən razı qaldıqlarını deyiblər. Qeyd edək ki, mart ayının 6-dək muxtar respublikamızın digər ümumtəhsil məktəblərindəki zabit olmaq istəyən şagirdlərin də liseyə ekskursiyaları təşkil ediləcək.

Nail ƏSGƏROV

Tərcüməçilik dövrün tələbinə uyğun sənət sahələrindəndir

Son dövrlərdə Naxçıvanın bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, regiona turist axınının getdikcə artması, burada fəaliyyət göstərən ali təhsil müəssisələrinin xarici ölkələrin bir çox universitetləri ilə əməkdaşlıq etməsi, yerli məhsullarımızın xarici bazarlara çıxarılması faktları muxtar respublikanın mühüm inteqrasiya yoluna qədəm qoymasından xəbər verir. Bu mənada, tərcüməçilik işinə daha çox ehtiyac duyulur. Doğrudur, bu gün yerli ali təhsil müəssisələrimizdə müxtəlif dillər üzrə ixtisaslı kadrlar yetişdirilir. Ancaq tərcüməçilik elə sahədir ki, buna hər bir vətəndaşın ehtiyacı ola bilər. Yəni tərcümə işi konkret olaraq bir istiqamət üzrə məhdudlaşmır, ona elmi, bədii, metodiki, hüquqi, iqtisadi, mədəni və digər sahələrdə də ehtiyac duyula bilər. Bəs bu ehtiyacın ödənilməsi üçün hazırda mövcud vəziyyət necədir? Elə kiçik bir araşdırma apardıqdan sonra hazırladığımız yazıda da bu suala cavab tapmağa çalışdıq.

Əvvəlcə muxtar respublikamızda bədii tərcümə işi ilə maraqlandıq. Bununla bağlı ilk olaraq Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyində olduq. Birliyin sədri Asim Əliyev bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2012-ci ilin oktyabr ayında birliyin nəzdində Tərcümə mərkəzi yaradılıb. Hazırda bu mərkəzə ingilis dili üzrə tanınmış mütəxəssis Şirməmməd Qüdrətoğlu rəhbərlik edir. Mərkəz yaradıldıqdan qısa müddət sonra onun rəhbərliyi ilə muxtar respublikada tərcümə işi ilə məşğul olan şair və yazıçılara xarici dillərdən bir sıra maraqlı əsərlərin dilimizə tərcümə olunması tövsiyə edilib. Bu sahədə mərkəzdə artıq müəyyən işlər aparılıb. Belə ki, şair və yazıçılarımızdan Həmid Arzulunun alman, Şirməmməd Qüdrətoğlunun ingilis dillərindən etdiyi tərcümələr kitab şəklində oxuculara çatdırılıb. "Dünyaya pəncərə" kitabında toplanan Şirməmməd Qüdrətoğlunun ingilis dilindən tərcümə etdikləri 30-a yaxın şeir və Corc Qordon Bayronun "Dəniz qulduru" poemasından bir parça, Ernest Heminqueyin bir neçə hekayəsi, həmçinin "Qoca və dəniz", "Əcəl zəngi", "Əlvida silah" romanları oxucular tərəfindən rəğbətlə qarşılanıb. Həmçinin Vaqif Məmmədovun, Elxan Yurdoğlunun türk poeziyasından tərcümə etdikləri nümunələr ayrıca kitab şəklində oxuculara təqdim olunub.

Son illərdə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Əbülfəz Quliyevin dünya ədəbiyyatı korifeylərindən olan Cəlaləddin Ruminin "Məsnəvi"sini ilk dəfə olaraq dilimizə çevirməsi müsbət dəyərləndirilib. Ali Məclis Sədrinin qayğısı ilə həmin əsər üç kitab şəklində çap olunaraq oxucuların ixtiyarına verilib.

Asim Əliyev bildirdi ki, Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, professor Həmid Arzulunun alman ədəbiyyatından tərcümə etdiyi Bertold Brextin "Üç imperiya", "Cuhud arvad", "Ədalət məhkəməsi", Efraim Lessinqin "Əsgər səadəti" dramı oxucular tərəfindən müsbət qarşılanıb, onun tərcümə etdiyi iki əsər Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulub. Bundan əlavə, bədii əsərlərin fransız dilindən tərcüməsilə məşğul olan Şamil Zamanın tərcümə etdiyi Pyer-Jan dö Beranje, Viktor Hüqo, Andre Şenye, Şarl Zasayi və digər şairlərin şeirləri öz bədii dəyərinə görə seçilir.

Asim Əliyev onu da qeyd etdi ki, son illər şair və yazıçılarımızın, filoloqlarımızın xarici ölkələrdə bir çox kitabları çap olunub. Onlardan akademik İsa Həbibbəylinin, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin, filologiya elmləri doktorları, professorlar Yavuz Axundlu və Hüseyn Həşimli, şairlərdən Elmira Qasımova, Kəmalə Ağayeva, Həmid Arzulu, Vaqif Məmmədov, Xanəli Kərimli, Məmməd Tahir və başqalarının əsərləri ayrıca kitab şəklində Rusiyada, Pakistanda, Ukraynada, Misirdə, Türkiyədə, İranda çap olunub.

Müsahibimiz bildirdi ki, bu gün bədii yaradıcılıqla məşğul olan gənc şairlər də tərcümə sənəti ilə maraqlanırlar. Onlardan Elxan Yurdoğlunun hazırladığı "Naxçıvan könülü" şeirlər kitabı Türkiyədə böyük maraqla qarşılanıb. Həmin kitaba Naxçıvana həsr olunmuş 77 şeirin daxil edilməsi türk oxucularında muxtar respublikanın tarixi yerləri, təbiəti ilə bağlı aydın təsəvvür yaradır.

Təqdirəlayiq haldır ki, bu gün muxtar respublikamızda bədii əsərlərin tərcüməsi ilə məşğul olan mərkəz işini günün tələbləri səviyyəsində qurub. Bu isə zəngin ədəbiyyat nümunələrimizin təbliğində, eyni zamanda oxucuların dünya ədəbiyyatının maraqlı nümunələri ilə tanış olmasında əhəmiyyətli rol oynayır.

Lakin bunu da qeyd etmək lazımdır ki, tərcümə işi yalnız bədii əsərlərin tərcüməsi ilə məhdudlaşmır. Bəzən hər birimiz rəsmi sənədlərin, elmi materialların, metodiki dərs vəsaitlərinin tərcüməsinə də ehtiyac duyuruq. Rəsmi sənədlərin tərcüməsi ilə bağlı araşdırma apararkən öyrəndik ki, bu işlə əlaqədar hazırda bir mərkəz fəaliyyət göstərir. Belə ki, sahibkar Azad Bağırovun rəhbərliyi ilə yaradılmış "Tərcümə Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti bu sahədəki tələbatı ödəməyi qarşısına məqsəd qoyub. Öyrəndik ki, burada mütəxəssislər tərəfindən rus, ingilis, alman, fransız, ərəb, fars dillərindən tərcümələr aparılsa da, bəzən digər dillərə də ehtiyac duyulur. Azad müəllim deyir ki, hərdən insanlar çin, yapon və başqa dillərdə olan rəsmi sənədləri, diplomları tərcümə etmək üçün mərkəzə müraciət edir. Lakin bu dillər üzrə mütəxəssislər olmadığından həmin sənədlər tərcümə üçün Bakı şəhərinə göndərilir.

Bu gün Naxçıvanda elmi mühitin inkişafı, müxtəlif sahələrdə aparılan tədqiqatlar da tərcümə işini ön plana çıxarır. Elə bu səbəbdən AMEA Naxçıvan Bölməsi ilə əlaqə saxladıq. Öyrəndik ki, ötən il bölmədə də tərcümə xidməti yaradılıb, ingilis və rus dillərini bilən iki əməkdaş işlə təmin olunub.

Tərcümə işi dövrün tələbinə uyğun olaraq getdikcə daha çox populyarlıq qazanır. Çünki qlobal inteqrasiya istər-istəməz bunu zəruri edir. Doğrudur, bu gün muxtar respublikamızda tərcümə xidmətləri geniş yayılmasa da, bu, əsasən, daxili bazarın tələbatından asılıdır. Ancaq ehtimal etmək olar ki, yaxın gələcəkdə bu sahədə də canlanmanın şahidi olacağıq.

Gülcamal TAHİROVA

Səhiyyə

Müasir tibbi aparatların tətbiqi cərrahiyyənin inkişafında yeni mərhələ açıb

Son illər Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin maddi-texniki bazasının möhkəmləndirilməsi digər sahələr kimi, cərrahiyyənin də inkişafında yeni mərhələ açıb. Əməliyyat bloklarında ən müasir tibbi avadanlıq, aparat və cihazların alınıb qurulması ümumi cərrahi, ginekoloji, uroloji, travmatoloji, ortopedik, oftalmoloji, neyrocərrahi, plastik cərrahi və burun-qulaq-boğaz əməliyyatlarının kəmiyyət və keyfiyyət göstəricilərinə öz müsbət təsirini göstərir.

Naxçıvanda ilk dəfə böyrək köçürülməsi, qastrektomiya əməliyyatlarının aparılması, yemək borusunun stendləşdirilməsi və plastikası, süni oynaq köçürülməsi, kardiostimulyatorların qoyulması, diafraqmal yırtıqların bərpasının uğurla həyata keçirilməsi yerli kadr hazırlığının yüksəldilməsi ilə yanaşı, həm də müasir tibbi avadanlıqların tətbiqi ilə bağlıdır. Cərrahi əməliyyatlar zamanı ötən ildən tətbiq edilən Ekstrakorporal Membran Oksigenasiyasından həyati funksiyaları yerinə yetirə bilməyən ürək və ya ağciyər çatışmazlığı xəstələrinə müvəqqəti dəstək məqsədilə istifadə olunur.

Kardiocərrahiyyə kabinəsində artiraskop cihazı vasitəsilə diz oynağı əməliyyatları, o cümlədən müxtəlif oynaq əməliyyatları həyata keçirilir.

Diaqnostika-Müalicə Mərkəzində muxtar respublika üçün daha bir yenilik olan laparoskopik, transuretral və sistoskopik yolla endoskopik əməliyyatların aparılması da təqdirəlayiqdir. Laparoskopiya üsulu ilə xüsusi kamera və manipulyatorların köməyilə qarın boşluğunu açmadan cərrahi müdaxilələrin aparılması mümkündür. Bu üsulla öd kisəsinin, böyrəyin kistalarının və xoşxassəli şişlərin çıxarılması, qarın boşluğu orqanlarının zədələnməsi və şişləri zamanı diaqnozun dəqiqləşdirilməsi ilə yanaşı, digər

mühüm əməliyyatlar da uğurlu nəticələr verir.

Ümumi cərrahiyyə şöbəsində aparılan mədə rezeksiyası, qastroektomiya, hemokoliektomiya, laparoskopik xolesistoektomiya əməliyyatları da son illərin uğurlarından biridir. Əməliyyat blokunda tibbi texnologiyanın son nailiyyətlərindən biri olan Ligasur-Triad cihazı özündə üç funksiyanı birləşdirir. Cihazdan qarın boşluğunda aparılan istər açıq, istərsə də qapalı əməliyyatların icrasında istifadə olunur. Onun ən böyük üstünlüyü aparılan cərrahi əməliyyatların müddətinin qısaldılması və çətin texniki əməliyyatların asanlaşdırılmasıdır. Digər cihaz isə "ŞTORZ" firmasına aid endoskopik əməliyyat komplektidir. Bu komplekt bir neçə mürəkkəb cihazın birləşməsi nəticəsində əmələ gəlib. Həmin cihazlar vasitəsilə qarın boşluğunda qapalı əməliyyatlar aparılır. Onun istifadə sahəsi çox genişdir. Belə ki, bu cihaz vasitəsilə uroloji, ginekoloji və abdominal əməliyyatlar uğurla icra olunur. Onu da qeyd edək ki, onun vasitəsilə ilk dəfə yerli kadrlar hesabına qapalı appendektomiya, qapalı öddaşı, qapalı yumurtalığın kistası və prostat vəzinin rezeksiyası əməliyyatları uğurla icra olunur.

İstifadəyə verilən müasir tibbi avadanlıqlardan biri də C-qövsvarı rentgen aparatıdır. Bu cihaz vasitəsilə birbaşa əməliyyat zamanı, yəni xəstə əməliyyat masasından qalxmadan mürəkkəb müayinələr aparılır.

Əməliyyat bloklarında katarakta, göz yaşı axacağının bərpası, çəpgözlük kimi göz əməliyyatları da mərkəzin həkimləri tərəfindən uğurla həyata keçirilir.

Mərkəzin Kardiocərrahiyyə şöbəsində yüzlərlə xəstədə angioqrafiya aparılıb, daralmış ürək damarları balonla genişləndirilib, stendlər qoyulub, müxtəlif anadangəlmə və qazanılmış ürək qüsurları bərpa edilib. Şöbədə, həmçinin ürəyin işemik xəstəlikləri zamanı açıq ürək əməliyyatı yolu ilə xəstələrin həyatı xilas edilib. Bu da muxtar respublikada tibb sahəsində əldə edilən mühüm yeniliklərdən biridir. Fərəhli haldır ki, artıq kardiocərrahi manipulyasiya və əməliyyatların hamısı – laparoskopik, transuretral, sistoskopik və oftalmoloji əməliyyatlar kənardan heç bir mütəxəssis dəvət etmədən, yalnız Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim kadrları tərəfindən həyata keçirilir və muxtar respublika əhalisinin bu problemlərlə bağlı Bakı şəhərinə, xarici ölkələrə getmələrinə ehtiyac qalmır.

Son zamanlar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə artıq humanitar yardım aksiyalarının təşkilində təcrübəsi olan Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi Kəngərli, Babək və Culfa rayonlarında dəfələrlə humanitar aksiyalar keçirmiş, xəstələrin qəbulunu, müayinəsini və onlar üzərində cərrahi müdaxilələr aparılmasını yüksək səviyyədə reallaşdırmışdır.

Hüseyn ƏSGƏROV

Xalq teatrı yeni tamaşa ilə teatrsevərlərin görüşünə hazırlaşır

Ordubad Rayon Xalq Teatrı teatrsevərlər üçün yeni tamaşa üzərində işləyir. Belə ki, yaxın vaxtlarda kollektiv yazıçı Rəşid bəy Əfəndiyevin "Tiflis səfəri" əsəri ilə teatrsevərlərin görüşünə gələcək. Tamaşanın rejissoru Günəş Ağayevadır.

Əsərdə oğlu Tiflisə gedən Püstə xanım və Mərdan bəyin ailəsindən bəhs edilir. Onların övladı burada xoşagəlməz hallarla rastlaşır, həbsə düşməli olur. Mərdan isə Tiflisə gedib oğluna vəkil tutaraq onu bu bəladan xilas etmək qərarına gəlir. Mərdanın həyat yoldaşı Püstə xanım və dostları Heydər bəy və Hacı Qara onu bu fikrindən daşındırmağa çalışır, lakin bacarmırlar. Mərdan bəy fikrindən dönmür, Tiflisə yola düşür. Burada xeyli çətinliklərlə üzləşdikdən sonra bütün pullarını xərcləyən Mərdan bəy geriyə – Vətənə qayıtmalı olur.

Tamaşada əsas qəhrəmanları – Mərdanı Nadir Məhərrəmov, Püstə obrazını isə teatrın aktyorlarından Günəş Ağayeva canlandıracaq. Heydər bəy surəti aktyorlardan Oruc Əliyevə, Hacı Qara isə Rəcəb Quliyevə həvalə edilib.

"Tiflis səfəri" tamaşası qısa zamanda teatrsevərlərə təqdim olunacaq.

Xəbərlər şöbəsi

Tullantılara yeni həyat bəxş edilərsə

Culfa Rayon Mədəniyyət Evinin mədəni-kütləvi tədbirlər üzrə təşkilatçısı Gülnisə Quliyevanın hazırladığı əl işləri emosional təsiri, özünəməxsusluğu ilə elə ilk baxışdan insanı özünə cəlb edir.

O, əl işləri ilə bağlı düşüncələrini bizimlə paylaşdı. Həmsöhbətimiz dedi ki, onda dekorativ-tətbiqi sənətə həvəs uşaqlıq illərində yaranıb, balaca yaşlarından tikmə, toxuma və digər sənət növləri ilə məşğul olub. Onun dediklərindən: "Uşaq çağlarımda nənəm qonşularla birgə evimizdə xalça toxuyardı. Gözümün önündə cərəyan edən bu proseslər vaxt ötdükcə məndə də bu işə maraq yaradırdı. Nənəm mənim bu işlərə həvəs göstərdiyimi görüb xalça toxumaq haqqında danışar, bəzən sülünü mənə uzadıb: "Bala, sən də bir az toxu, görüm bacarırsanmı?" – deyərdi. Təbii ki, işə o qədər bələd olmadığımdan ilmələrin yerini səhv salardım. Sonralar dekorativ-tətbiqi sənətin digər növləri ilə də maraqlandım. Hədsiz həvəsim məndə tullantılarla bağlı nəsə hazırlamaq fikrini ortaya çıxardı. Onu da deyim ki, tullantılardan sənət əsəri yaradan insanlar haqqında kifayət qədər məlumatım var idi. Bu işə yiyələnmək o qədər də asan olmadı. İlk vaxtlar ətrafımdakı insanlar mənə soyuq münasibət bəslədi. Onlar mənə: "Ay bala, get özünə sənət tap, bu nə işdi axı?" – deyirdilər. Ancaq həvəs və inadım güclü olduğundan bu sözlərə məhəl qoymadım. Ən gözəl çıxış yolu maraqlı əl işləri hazırlayıb deyilən sözlərin yanlış olduğunu ortaya çıxarmaq idi. Elə düşündüyüm kimi də oldu. Düzəltdiyim balaca əl işləri ilə onları təəccübləndirə bildim. Bir vaxtlar bu işə laqeyd yanaşan insanlar indi əl işlərimə heyranlıqla tamaşa edir, hətta alıb evlərinə aparırlar".

Müsahibim deyir ki, insanların çoxu tullantıya lazımsız əşya kimi yanaşsa da, bəziləri onlara yeni həyat bəxş etməyi bacarır. Əldə etdiyim köhnə metallarla müxtəlif əl işləri yaradıram. Bu, onu göstərir ki, tullantı məhsullarını sənət əsərinə çevirmək insanın öz əlindədir. Artıq illərdir ki, tullantı materialları üzərində çalışır, gözoxşayan işlər görürəm. İstər tablolar, istərsə də suvenirlər hazırlamaq mənə xüsusi zövq verir. Düşünəndə ki, ayaq altında olan hansısa bir daş, çürümüş ağac, atılmaqda olan hər hansı bir əşyanı dəyərləndirir, onu yenidən insanlar üçün faydalı bir əşyaya çevirə bilirsən, öz əl əməyinlə hansısa guşəni gözəlləşdirirsən, bunun özü mənə xüsusi sevinc bəxş edir. Gülnisə Quliyeva bildirdi ki, əl işi yaratmağı öyrənmək üçün ona müraciət edənlər də az deyil. Bu məqsədlə Culfa Rayon Mədəniyyət Evində "Məişət tullantılarından əl işlərinin hazırlanması" dərnəyi təşkil olunub.

Şagirdləri ilə birlikdə həvəslə çalışan Gülnisə xanım ətraf mühitin mühafizəsi ilə bağlı yeni layihələrlə də çıxış etmək arzusundadır. Biz də ona bu işdə uğurlar arzulayırıq.

Nail ƏSGƏROV

Dövlət Baytarlıq Xidmətində seminar keçirilib

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində "Süni mayalanma, imkanların aşkar edilməsi və onlardan faydalanma" mövzusunda keçirilən seminarı giriş sözü ilə Dövlət Baytarlıq Xidmətinin rəis müavini Məhəmməd Hüseynov açıb.

Vurğulanıb ki, muxtar respublika əhalisini ekoloji cəhətdən sağlam heyvandarlıq məhsulları ilə təmin etmək üçün qarşıya qoyulan tələblərdən biri də bu sahənin inkişafıdır.

Naxçıvan Muxtar Respublikası ərazisində olan mal-qara arasında süni mayalanma işlərinin gedişi, əldə olunan nəticələr haqqında geniş məlumat verən Məhəmməd Hüseynov bildirib ki, muxtar respublikamızda bu günədək, ümumilikdə, 62 min 436 baş iribuynuzlu mal-qara süni mayalandırılıb, bunun nəticəsində 39 min 48 baş bala alınıb.

Naxçıvan Dövlət Universitetinin Baytarlıq təbabəti kafedrasının baş müəllimi, biologiya üzrə fəlsəfə doktoru Əli Tahirov çıxış edərək bildirib ki, süni mayalanma işi heyvanların cins tərkibini yaxşılaşdırmaqla yanaşı, onların genetik xüsusiyyətlərinin də sonrakı nəslə ötürülməsini təmin edir. Əli Tahirov bu işdə maarifləndirmə tədbirlərinin də rolunun əhəmiyyətli olduğunu iştirakçıların diqqətinə çatdırıb.

Dövlət Baytarlıq Xidmətinin Epizootiya əleyhinə mübarizə və müalicə-profilaktika sektorunun müdiri Şəmsəddin Nağıyev zoonoz xəstəliklərin heyvanlardan insanlara keçən brusellyoz, vərəm, qarayara olduğunu və son dövrlər muxtar respublikamızda iti gedişli infeksiya aşkar edilmədiyini bildirib.

Həmin sektorun baş məsləhətçisi Elnur Əliyev isə qeyd edib ki, bu sahəyə göstərilən dövlət qayğısı nəticəsində heyvandarlıq təsərrüfatlarında süni mayalanma işinin günün tələbləri səviyyəsində qurulması əhalinin ekoloji saf və təmiz ət-süd məhsulları ilə təminatında mühüm rol oynayır. Bu yolla heyvanların baş sayının artırılması öz səmərəsini verir. Elnur Əliyev deyib ki, 2002-ci ildə 54 başda süni mayalanma aparılaraq 35 baş sağlam bala əldə olunmuşdursa, 2017-ci ildə 9190 baş inəkdə süni mayalanma aparılaraq 5804 baş sağlam buzov alınıb. Dövlət başçısının müvafiq sərəncamı ilə 2015-ci ildən süni mayalanma ilə doğulan hər buzova 100 manat subsidiya ödənilməkdədir. Həmin sərəncamın qüvvəyə minməsindən sonra 2017-ci ilin noyabr ayınadək verilən subsidiyanın məbləği 930 min manat təşkil edir.

Ramiyyə ƏKBƏROVA

Karateçilərimiz beynəlxalq idman olimpiadasında iştirak edəcəklər

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirməsi daha bir uğura imza atıb. Rəşid Süleymanov Rusiya Federasiyasının Lipeçk şəhərində keçirilən karate üzrə "Böyük Pyotr" kuboku uğrunda turnirdə iştirak edib.

İki gün davam edən turnirdə idmançımız 10-11 yaşlı idmançılar kateqoriyasında mübarizə aparıb. Tatami üzərinə çıxan karateçimiz bürünc medal qazanıb.



Karate-do Federasiyasının yetirmələrini qarşıda daha böyük yarış gözləyir. Belə ki, fevralın 16-da İran İslam Respublikasının Gilan və Astara şəhərlərində beynəlxalq idman olimpiadası start götürəcək. Turnirdə taekvando və cüdo növləri ilə yanaşı, karate üzrə də yarışlar təşkil ediləcək. Turnir Karate Federasiyasının qaydalarına əsasən kumite və kata bölmələri üzrə keçiriləcək. Bu növdə idmançılar 6 yaş kateqoriyasında mübarizə aparacaqlar. Azərbaycan millisinin heyətində qonşu ölkəyə iki idmançımız – Vüsal Seyidov (12-13 yaş) və Aslan İsmayılov (14-15 yaş) yollanacaqlar.

Ceyhun MƏMMƏDOV

İtmişdir

Əsgərova Günel Azər qızının adına 2005-ci ildə Naxçıvan Musiqi Kolleci tərəfindən verilmiş BB-II-018760 seriya nömrəli diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Fatma Babayeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 134